**“Təsdiq edirəm”**

**ADPU-nun rektoru, professor Cəfər Cəfərov**

___ ______________ 2019-ci il tarixli

__________ saylı protokolu

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

İNCƏSƏNƏT VƏ FİZİKİ TƏRBİYƏ FAKÜLTƏSİ HAQQINDA

ƏSASNAMƏ

**İncəsənət və fiziki tərbiyə fakültəsi haqqında Əsasnamə**

İncəsənət və fiziki tərbiyə fakültəsi Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) tədris, elm və inzibati bölməsi olub. "Musiqi müəllimliyi", "Təsviri incəsənət müəllimliyi", "Fiziki tərbiyə müəllimliyi" və "Çağırışaqədər hazırlıq müəllimliyi" ixtisasları üzrə bakalavr, magistr, doktor hazırlanması, eləcə də fakültədə elmi-tədqiqat və tərbiyə işlərinə rəhbərlik edir.

İncəsənət və fiziki tərbiyə fakültəsi "Musiqi müəllimliyi", "Təsviri incəsənət müəllimliyi", "Fiziki tərbiyə müəllimliyi" və "Çağırışaqədər hazırlıq müəllimliyi" ixtisaslarının əsas ixtisas kafedraları olan "Musiqi və onun tədrisi texnologiyası", "Təsviri incəsənət və onun tədrisi texnologiyası" və "Fiziki tərbiyə və çağırışaqədər hazırlığın tədrisi texnologiyası" kafedralarını həmçinin fakültəyə xidmət göstərən digər kafedraları, nümayiş zallarını, muzeyləri, emalatxanaları, tədris bazalarını və s. özündə birləşdirir. İncəsənət və fiziki tərbiyə fakültəsi ADPU-nun Elmi Şurası tərəfindən yaradılır və bu haqda Azərbaycan Respublikası Təhsil Nazirliyinə yazılı məlumat verilir.

İncəsənət və fiziki tərbiyə fakültəsinə mövcud qayda seçilmiş və ya təyin olunmuş dekan rəhbərlik edir.

İncəsənət və fiziki tərbiyə fakültəsinin ştatında fakültə dekanın müavini vəzifəsi nəzərdə tutulur İncəsənət və fiziki tərbiyə fakültəsinin dekan müavini fakültə dekanının təqdimatı əsasında ADPU-nun rektorunun əmri ilə təyin olunur. Dekan müavini fakültənin profilinə uyğun olmalıdır.

İncəsənət və fiziki tərbiyə fakültəsinin dekanı:

- Fakültədə tədris prsesinə, tərbiyə işinə və elmi tədqiqatların yerinə yetirilməsinə bilavasitə rəhbərlik edir;
- Təhsil proqramlarının və tədris planlarının dövlət təhsil standartları tələblərinə uyğun olaraq həyata keçirilməsini təmin edir;
- Tələbələrin elmi, pedaqoji və istehsalat praktikalarının həyata keçirilməsi üçün şərait yaradır və onu nəzarətdə saxlayır;
- Fakültə üzrə dərs cədvəllərinin tərtibinə rəhbərlik edir, onun optimal variantlarının təmin olunması üçün məsuliyyət daşıyır və həyata keçirilməsinə nəzarət edir;
- Tələbələrin müstəqil işlərinə nəzarəti təşkil edir və onların elmi fəaliyyətləri üçün şərait yaranmasını təmin edir;
- Tələbələrin imtahan və yoxlamalarının keçirilməsinə nəzarəti təşkil edir, akademik borcları ləğv etmək üçün qruplar yaradır. Bütün imtahan yoxlama prosesinin normal, mövcud tələblərə uyğun keçirilməsinə birbaşa cavabdehlik daşıyır;
- Tələbələri semestrdən semestrə, eləcə də tələbələr sırasından xaric etmək və təkrar kursda saxlamaq üçün rektora təqdimatlar verir;
- Tələbələrin buraxılış-yekun dövlət imtahanlarında və buraxılış işlərinin müdafiəsinə buraxılmasına icazə verir;
- Fakültədə təhsil alan tələbələrə mövcud qaydaya uyğun şəkildə təqaüdü təqdim edir;
- Fakültədə çalışan professor-müəllim heyətinin ixtisas artırılması və yenidən hazırlanması işinin həyata keçirilməsinə rəhbərlik edir;

- Fakültədə təhsil alan doktorların təhsilin lazımi səviyyədə təşkil olunmasını təmin edir. Onların attestasiyalarını keçirir;
- Fakültənin pprofilinə uyğun dərsliklərin, dərs vəsaitlərinin, fənn proqramlarının, təhsil normalarının, tədris planlarının, metodiki göstərişlərin və tələbələrə təqdim olunan mətnlərin hazırlanmasına göstərişlər verir və bu işə ümumi rəhbərlik edir;
- Kafedralararası müşavirələrin, elmi-metodiki müzakirələrin və konfransların keçirilməsini təşkil edir və onlara rəhbərlik edir;
- Ümumfakültə elmi-metodiki və elmi seminarların təşkil olunmasını təmin edir;
- Fakültədə hazırlanan ixtisaslar üzrə peşəyə yönümü işinin aparılmasını təşkil edir və onun lazımi səviyyədə olmasına məsuliyyət daşıyır;
- Ali təhsilin hər iki pilləsi, eləcə də magistratura və doktorantura üzrə fakültədə hazırlanması mümkün və zəruri olan ixtisasları və ixtisaslaşmaları müəyyənləşdirir, onlar üzrə illik perspektiv qəbul planları üzrə ali məktəbin rəhbərlərinə təkliflər təqdim edir;
- Fakültə elmi şurasına rəhbərlik edir;
- Universitetdə fakültənin fəaliyyəti ilə bağlı olan bütün tədbirlərdə, kommisiyalarda, yığılncaq və şuralarda fakültəni təmsil edir;
- Dekan müavinlərini təyin etmək üçün təqdimat verir;
- Fakültədə elmi şürasına rəhbərlik edir;
- Fakültədə olan tədris köməkçi heyətin işinə nəzarət edir. Onların işə qəbulu və işdən azad olunması, eləcə də rəğbətləndirilməsi və cəzalandırılması üçün ADPU-nun rektoruna təqdimat verir;
- Ayrı-ayrı kafedraların tədris yükünün düzgünlüyünü yoxlayıb, onlara rəy verir;
- Musiqi, təsviri incəsənət, fiziki tərbiyə və çağırışaqədər hazırlıq" fakültəsinin tələbəsi aşağıdakı davranış qaydalarına riayyət etməlidir;
- Daxili nizam-intizam qaydalarına tam əməl etməlidir;
- Həm Universitetdə, həm də ictimai yerlərdə özünü intizamlı, mədəni və ədəbli aparmalıdır;
- Universitetin və fakültənin rəhbərliyinə, müəllimlərə və digər əməkdaşlara hörmətlə yanaşmalıdır;
- Universitet və fakültə rəhbərliyinin tələb və göstərişlərini sözsüz yerinə yetirməlidir;
- Universitetin və fakültənin rəhbərliyi, kafedra müdirləri və müəllimlər auditoiyaya daxil olarkən hörmət əlaməti olaraq ayağa qalxmalıdır;
- Öz yoldaşları ilə nəzakətli davranmalıdır;
- Korpusda iş rejiminə, sakitliyə əməl etməlidir;
- Dərs və məşğələlərin gedişinə mane ola bilən hərəkətlərə yol verməməlidir;

- Tədris korpusunun daxilində və hətəyində siqaret çəkilməsinə, nalayiq davranışa yol verməməlidir;
- Üst-başı təmiz olamlı, səliqəli geyinməlidir;
- Tədris korpusunda səliqə-sahmana riayət etməlidir;
- Universitetin əmlakına vicdanla yanaşmalı, onun korlanmasına və itməsinə qətiyyən yol verməməlidir;
- Rəhbərliyinin icazəsi olamadan tədris auditoriyalarında və digər otaqlardan əşya və müxtəlif avadanlığın çıxarılmasına, bir otaqdan başqasına, yerinin dəyişdirilməsinə yol verməməlidir;

Davranış qaydalarını pozan tələbə birinci dəfə yazılı şəkildə töhmət, ikinci dəfə şiddətli töhmət alaraq (əgər təqaüd alırsa, həmin semestr üçün təqaüddən məhrum ediləcək), üçüncü dəfə isə dərhal universitetdən xaric edilməlidir.

Universitetin əmlakına zərər vuran tələbə maddi ziyanın dəyərinin 5 qat əvəzini ödəyir və ya universitetdən dərhal xaric edilməlidir.

İncəsənət və fiziki tərbiyə fakültəsinin fəaliyyətinə dair məsələlərə baxmaq üçün fakültədə mövcud qanunvericiliyə uyğun təşkil olunmuş Elmi Şüra fəaliyyət göstərir.

İncəsənət və fiziki tərbiyə fakültəsi ADPU-nun rektorunun təşəbbüsü ilə ADPU-nun Elmi Şurasının qərarı ilə ləğv oluna bilər. Bu qərar Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq olunduqdan sonra qüvvəyə minir.

Əsasnamə 06 sentyabr 2019-ci il tarixində fakültə Elmi Şurasında təsdiq olunub.